***Zemfira Səfərova–85***

# Zemfira Səfərovanın "Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)" əsəri və onun musiqişünaslıqda rolu

**İradə Köçərli**
Sənətşünaslıq elmləri doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: i.kocharli@gmail.com

**Annotasiya.** Görkəmli musiqişünas-alim, sənətşünaslıq doktoru, professor, AMEA-nın həqiqi üzvü, Şöhrət ordenli, Əməkdar elm xadimi, Əməkdar incəsənət xadimi, "Humay ilahəsi–96" mükafatı laureatı Z.Səfərovanın elmi fəaliyyəti ictimaiyyət tərəfindən birmənalı olaraq qəbul olunur və adı hörmətlə çəkilir. O, bütün həyatını Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunmasına, musiqi tarixinin, elm və mədəniyyətinin öyrənilməsinə həsr etmişdir.
**Açar sözlər:** Zemfira Səfərova, akademik, S.Urməvi, Ə.Marağayi, "Kitab-ül Ədvar", M.M.Nəvvab, Ü.Hacıbəyli

**Məqalə tarixçəsi:** göndərilib – 20.09.2022; qəbul edilib – 25.09.2022

# Zemfira Safarova's monograph "Azerbaijan's music science (XIII-XX centuries)" and its importance in the development of musicology

**Irada Kocharli**
Doctor of Art studies
Institute of Architecture and Art of ANAS. Azerbaijan.
E-mail: i.kocharli@gmail.com

**Abstract.** Zemfira Safarova, a prominent musicologist, doctor of art history, professor, full member of ANAS, holder of the Order "Glory" ("Şöhrət"), honored scientist, honored art worker, laureate of "Humay-96" award, is one of the well-known scientists in our republic and abroad. She devoted her entire life to the protection of national and spiritual values of the Azerbaijani people, the study of music history, science and culture. Z.Safarova's monograph "Azerbaijan's music science (XIII-XX centuries)" is of special importance in the development of musicology and the study of our musical history.
**Keywords**: Zemfira Safarova, academician, S.Urmavi, A.Maraghai, "Kitab-ul Advar", M.M. Navvab, U.Hajibeyli

**Article history:** received − 20.09.2022; accepted − 25.09.2022

## Giriş / *Introduction*

Hər dəfə Zemfira Səfərovanı Akademiyada – müxtəlif tədbirlərdə, elmi şura iclaslarında, iş otağında və ya sadəcə, dəhlizdə görərkən qarşımda çox ciddi, təmkinli, yüksək daxili mədəniyyətə malik, hörmətli bir insanla qarşılaşdığımı hiss edirəm, məmnunluq duyuram və özümü toparlayaraq ehtiramla salamlaşmağa çalışıram. Bu, onunla bağlıdır ki, Zemfira xanımın simasında əsl ziyalını görürəm və Zemfira xanım o insanlardandir ki, "alim" adını daim uca tutur və özündə şərəflə daşıyır. Zemfira Səfərova o alimlər nəslinə mənsub musiqişünasdır ki, onları indi bir qədər nisgillə yada salır, daha çox görməyi arzulayır və təmasda olmağa, ünsiyyət qurmağa çalışırıq.

Z.Səfərovanı 1960-cı illərin yetirməsi adlandırmaq mümkündür. Məlum olduğu kimi, Azərbaycanda "60-cılar", "60-cı illər" kimi anlayışlar artıq tarixi bir gerçəklikdir. Bu, bir çox sahələrdə, xüsusilə də musiqi sahəsində qüdrətli sənətkarların, çoxlu sayda bədii sənət əsərlərinin yarandığı Azərbaycan mədəniyyəti tarixinin ən parlaq dövrlərindən biridir. Z.Səfərovanın elmi fəaliyyətə başladığı dövr də 1960-cı illərə təsadüf edir. Həmin "parlaq" dövrün işığı, bir şüası da Z.Səfərovanın üzərinə düşüb desək, zənnimizcə, yanılmarıq. İndi Z.Səfərova respublikamızda və onun hüdudlarından kənarda tanınan alimlərdən biridir, adı hörmətlə çəkilən görkəmli musiqişünasdır.

Zemfira Səfərova mənən zəngin, ali hisslər, böyük amallarla yaşayan, vətənpərvər, xalqına təmənnasız xidmət etməyi hər bir şeydən uca tutan bir insandır. O, daim yaradıcı bir çevrədə yaşayıb-yaratmışdır: Azərbaycanın görkəmli yazıçı və şairlərinin, böyük alim və sənətkarların, istedadlı şəxsiyyətlərin, bəstəkar və ifaçıların, bir sözlə, Azərbaycan naminə çalışıb-vuruşan qüdrətli insanların əhatəsində fəaliyyət göstərmişdir. Bütün bunlar onun dünyagörüşünü, həyata baxışlarını qəti olaraq müəyyən etmişdir. Z.Səfərova üçün "Azərbaycan", "Vətən", "Xalq", "Millət", "Azərbaycan dili" ifadələri sıradan olan sözlər deyildir. Onu həyat yollarında məhz bu kəlmələr irəliyə doğru aparıb, yeni elmi yenilikləri, zirvələri fəth etməyə ruhlandırıb. Onun bütün elmi fəaliyyəti xalqına, doğma torpağına məhəbbət hissi ilə doludur. Məhz bu, Zemfira xanımın həyat və fəaliyyətinin ana xəttini müəyyənləşdirib: alim "Azərbaycançılıq məfkurə"sini əsas tutaraq, musiqi sahəsinin elm fədaisinə çevrilib.

## Əsas hissə / *Main Part*

Akademik Z.Səfərovanın Azərbaycan elmi qarşısında xidmətləri çöx böyükdür. Mən bu yazım çərçivəsində Z.Səfərovanın "Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)" əsəri üzərində dayanmaq istəyirəm. Bu əsər fundamental bir tədqiqat əsəridir və həqiqətən, alimlərin qeyd etdikləri kimi, Z.Səfərova yaradıcılığının zirvəsidir. Bu tədqiqat işinin musiqi elmi tarixinin öyrənilməsində əhəmiyyəti danılmazdır. Lakin əsərin əsas mahiyyəti bununla da məhdudlaşmır. "Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)"nin tarixi, ictimai-mədəni, kulturoloji, təcrübi və hətta siyasi əhəmiyyəti göz qarşısındadır. Bu əsərin ən böyük uğuru odur ki, Z.Səfərova Qərbdə ərəb və ya İran musiqişünası kimi bilinən dahi Səfiəddin Urməvini dünyaya azərbaycanlı kimi tanıdıb və onu yenidən xalqımıza, millətimizə qaytarıb, onun elmi irsini milli sərvətimizə çevirib. Musiqişünas özünün yazdığı kimi, ərəb mənbələrində qeyd olunan fikirlərin: "Səfiəddin yalnız Abbasilər dövrü ərəb musiqinin nümayəndəsidir...", "ərəb ruhludur", "ərəb musiqişünası sayılmalıdır" kimi fikirlərin üzərindən birdəfəlik xətt çəkmişdir. Əslində, S.Urməvinin müxtəlif xalqlar tərəfindən özününküləşdirilməsi, bir tərəfdən, anlaşılandır, Urməviyə sahib çıxmaq, hətta kiçik bir saplaqdan belə yapışaraq, çoxlarının arzusu olmuşdur. Çünki belə bir nəhəng alimə sahib olmaq elmi xəzinə qazanmaq deməkdir. Nə yaxşı ki, Z.Səfərova kimi alimimiz var və onun sayəsində bu xəzinə indi bizim əlimizdədir və Z.Səfərova özünün elmi araşdırmaları, tutarlı dəlilləri nəticəsində bütün yanlış ehtimalları aradan qaldırmağa nail olmuşdur.

Kitabın hər bir hissəsi, hər bir sətri, cümləsi belə yenidir, mühüm bir fikir daşıyıcısıdır. Burada ilk dəfə olaraq, Azərbaycan xalqının çoxəsrlik elmi – onun dərin kökləri və zəngin tarixi, inkişaf mərhələləri, dahi Azərbaycan musiqişünaslarının həyat və yaradıcılıqları, onların risalələri və bir çox mühüm nəzəri və estetik məsələlər araşdırılmış və öyrənilərək bir arada cəmlənmişdir. “Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)” işinin ən uğurlu tərəfi odur ki, sanballı bir tədqiqat əsəri kimi, Azərbaycanın musiqi elmi haqqında obyektiv reallığı ortaya qoyur və həqiqəti üzə çıxarır.

Müəllif əsərdə mövzuya tarixi, tarixi-xronoloji, musiqi-nəzəri, eləcə də məntiqi yanaşmalar tətbiq edir, özü yazdığı kimi, “Azərbaycanın musiqi elmini müəyyən ardıcıllıqla, müəyyənləşmiş sistemlə araşdırır” və onların köməyi ilə mühüm nəzəri problemləri açır, ilk dəfə qarşıya qoyulan mürəkkəb məsələləri həll edir, qarşısına çıxan bütün maneələri aradan çıxarır və ən əsası, dediklərini sübuta yetirir.

Bu əsəri ilə Z.Səfərova böyük bir zaman kəsiyini – XIII yüzillikdən başlayaraq XX yüzilliyədək olan bir dövrün “bütöv bir elmi “mənzərəsini” yaratmağa nail olmuş, Şərq mədəniyyətinə xas olan ənənəviliyi – elmi fikirlərin bir-birilə bağlı şəkildə yaranması və yenilənməsi, qarşılıqlı əlaqə və təsir mühitində inkişaf etməsi xüsusiyyətlərini izləmiş və əhatə olunan səkkiz yüzilliyə sanki zəncirvarı bağ salmışdır.

Sözsüz ki, əsərin ən mühüm hissələrindən biri “Kitab əl-Ədvar”a həsr olunmuş hissədir. Səfiəddin Urməvinin bu məşhur risaləsinin musiqişünaslığımız, elm və mədəniyyət tariximiz üçün nə qədər böyük əhəmiyyət daşıdığı hər bir kəsə məlumdur. İlk dəfə olaraq, məhz Z.Səfərova bu dünyaca məşhur, mürəkkəb elmi-nəzəri əsəri fəsilbəfəsil, cümləbəcümlə açır və elmi baxımdan şərh edir. Səfiəddin Urməvinin ən böyük xidmətlərindən biri sayılan “sistemçilik məktəbi”nin elm tarixində dönüş yaratmasını, XVI yüzilliyədək bütün Yaxın və Orta Şərqdə geniş yayıldığını, musiqi səsi haqqında dəqiq və fiziki qanunlarla əsaslandırılmış dərin fikirlərini diqqətlə izləyən tədqiqatçı alim S.Urməvini bu əsərində yalnız musiqişünas deyil, eyni zamanda ensiklopedik biliklərə malik, özündən qabaq gələn alimləri üstələyən bir nəzəriyyəçi kimi dəyərləndirir.

Çağdaş dövrümüzdə əksər musiqişünasların öz yazılarında tez-tez istifadə etdikləri on yeddi pilləli səs düzümü, harmonik intervalların qrafik yazısı, ritmlərin təsvirləri ilk dəfə məhz bu əsər sayəsində tanınıb. İndi bir çox toplu və jurnalların üzünü bəzəyən məşhur Dairələr – Üşşaq, Nəva, Busəlik, Rast, Hüseyni, İraq məqamlarının dairəvi cədvəlləri musiqi ictimaiyyətinin sərvətinə çevrilib. Bu dairələr təkcə zahiri görünüşü ilə də diqqəti özünə cəlb edib, bir çox alimlərə mənəvi ilham verib, daimilik, həyatın sonsuzluğu, silsiləviliyi və bu kimi fikirlərə gətirib çıxarıb, onları yeni elmi istiqamətlərə – kosmoqonik, metafizik, rasional və irrasional baxışlara istiqamətləndirib.

Kitabın I hissəsinin XV – sonuncu fəslini işıqlandıran alim S.Urməvinin icad etdiyi yazı fabulaturasının xüsusiyyətləri, təcrübi əhəmiyyətini açmış və həmin üsulla yazılmış Urməvinin dörd melodiyasını təqdim etmişdir. Müəllif I melodiyanın, digər müəlliflərlə yanaşı, özü tərəfindən açılmış not yazısını da vermişdir. *Həmin melodiya haqqında fikirlərimi çatdırmaq istərdim. 1. Tezis şəklində nöqtəli çərək notlarla iki melodik özək yazılıb. Sonra isə onun üzərində improvizasiya şəkilli gəzişmə özünü göstərir. 2. Hər iki melodik özək aşağı istiqamətlidir, trixord hərəkətindən ibarətdir. 3. Melodiya bu iki özək üzərində yaranır və inkişaf edir. 3. İki melodik ibarədən ibarətdir. I – fa-mi-re trixordu üzrə və II mi bemol-re-do trixord hərəti üzrə. 4. Ümumi səs diapazonu kvarta həcmlidir və Melodiyanın ümumi quruluşunda aşağı istiqamətli tetraxord üzrə hərəkət müşahidə olunur. 4. Melodik hərəkət əsas dayaq nöqtəsinə istiqamətlənir. 5. I melodik ibarə təkrar olunur. 7. II melodik ibarədə ritmik dəyişiklər müşahidə olunur. I və III melomisralar eyni, II və IV melomisralar isə dəyişkəndir. 8. Melodiya əskilmiş II pilləli “Şur” məqamına uyğundur, hansı ki, xarakterik məqam alterasiyasıdır.* Bu tip melodik improvizasiyalara Azərbaycan musiqisində, xüsusilə muğamların, eləcə də, aşıq havalarının kadensiya bölmələrində, musiqi cümlələrinin sonluğunda müşahidə etmək olar və onlardan saysız-hesabsız nümunələr gətirmək mümkündür. Z.Səfərovanın özü tərəfindən

aparılan bu “açma”sı bizi 1. XIII əsrdə yazıya alınmış musiqi ilə tanış edir. Lakin bu fikir də dəqiq deyil, bu melodiyanı yalnız XIII əsrə aid etmək fikri həqiqəti əks etdirmir. 2. Çünki həmin yazıda əks olunan melodiya, çox güman ki, artıq əsrlər boyu formalaşmış bir ifadə tipini, formalaşmış melodik-ritmik qanunauyğunluqları, improvizasiya elementlərini və s. özündə cəmləmişdir və bu baxımdan, fikrimizcə, melodiya daha erkən dövrlərin musiqisini gözümüz önündə canlandırır, qədim dövrlərin musiqisi haqqında təsəvvür yaradır. 3. Həmin melodiya orta əsrlərdə və bu gün səslənən milli musiqimiz arasındakı ümumilikləri üzə çıxarır, S.Urməvinin “ərəb ruhlu” deyil, “Azərbaycan ruhlu” musiqiçi olduğunu da bir daha sübut edir. “Üşşaq”, “Busəlik”, “Nəva”nın türklərə daha yaxın olduğunu söyləməsinin də təsadüfən olmadığını da təsdiq edir. (Nəva şur məqamı ilə eyni səs sırasına malikdir) [1, s.111]. Bütün bunlar Zemfira Səfərovanın tədqiqatları, şifrələrin açılması sayəsində üzə çıxan fikirlərdir.

Marağayi haqqında hissədə bu böyük musiqişünas-alimin elmə gətirdiyi ən mühüm yenilikləri – 12 şöbə və onların bütün təfsilatı ilə incələməsi, musiqi forma və janrları, ritm silsilələri, üsullar haqqında, musiqi alətləri (o cümlədən özünün icad etdiyi), onların kökləri haqqında yürütdüyü elmi fikirləri ortaya qoyulur və onların hərtərəfli şərhi verilir. Bu bölmənin ən önəmli tərəflərindən biri də Ə.Marağayinin musiqisi və şeirlərinə həsr olunmuş fəsildir. İlk dəfə olaraq məhz Z.Səfərova Marağayinin əsərlərindən iki nümunəni xorun ifasında səsləndirərək musiqi ictimaiyyətinə təqdim etmiş və bu ifa ölkəmizin mədəni həyatında əlamətdar hadisəyə çevrilmişdir. “Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)” əsərində isə Ə.Marağayinin musiqi əsərlərinin siyahısı və beş əsərin not yazıları təqdim olunmuş, onların forması, məzmunu, özəl xüsusiyyətləri barəsində maraq doğuran mühüm məlumatlar verilmişdir.

Kitabın III hissəsində müəllif Azərbaycan musiqi elminin inkişafında davamlılığın – qırılmaz bağların olduğunu bir daha sübut edərək, XV-XIX əsrlərdə yaranmış elmi əsərlərə də toxunur və mümkün olduğu qədər onların yığcam icmalını təqdim edir. Ə.Marağayinin övladları – Əbdüləziz Çələbi və Mahmud Çələbinin, Mirzə bəyin “Musiqi haqqında”, anonim “Ədvar” risalələri, Əbdülmömin Səfiəddinin “Behcət-ül ruh” risalələri haqqında maraqlı şərhlər verir və həmin alimlərin Azərbaycan musiqisi və elminin inkişafında rolunu açıb göstərir.

Məlum olduğu kimi, Zemfira xanımın tərtib etdiyi, onun təşəbbüsü ilə yazılmış “Azərbaycan musiqi tarixi (XIII-XX əsrlər)”nin I cildində Fətullah Şirvani haqqında bölmə də vardır. XV yüzillikdə yaşamış böyük alim – riyaziyyat, astronomiya, coğrafiya, biologiya, ədəbiyyat və musiqi elmi sahəsində ensiklopedik biliklərə malik olan bu böyük şəxsiyyətlə tanışlıq da Zemfira xanımın tədqiqatları sayəsində baş tutub. “Musiqi tarixi” əsərində müəllif F.Şirvaninin həyatı, elmi irsi və “Musiqi məcəlləsi” adlı risaləsi ilə ilk dəfə olaraq, musiqi ictimaiyyətini tanış edir və bu risalənin “qiymətli orta əsr qaynağı kimi neçə-neçə tədqiqatın yaranmasına səbəb olacağını” əvvəlcədən uzaqgörənliklə xəbər verir. Fikrimizcə, “Azərbaycanın musiqi elmi” 2000-ci illərdə yazılsaydı, Z.Səfərova F.Şirvani haqqında bölməni də bu kitaba daxil edərdi. Çünki əsərin xronoloji quruluşunda, böyük şəxsiyyətlər cərgəsində F.Şirvaninin də yeri şəksiz-şübhəsizdir.

V hissənin əsas fəsilləri, demək olar ki, XIX əsrin parlaq nümayəndəsi M.M.Nəvvabın elmi irsinə həsr olunmuşdur. M.M.Nəvvabın geniş və hərtərəfli biliklərini, onun elm, mədəniyyət, ədəbiyyat sahəsində yaratdığı bədii irsini, maarifçilik, siyasi-ictimai fəaliyyətini açıqlayan müəllif üçün, əlbəttə ki, əsas hədəf musiqi elmi ilə bağlı olan əsərlər olmuşdur. Müəllif “Kəşkül-həqiqeyi-məsnəvi”dən Nəvvabın muğamlar, şöbə, guşə və avazların adı çəkildiyi və şeir dili ilə yazdığı III hissənin tərcüməsini, daha sonra yenə də özünün zəhməti sayəsində transliterasiya və tərcümə edilmiş, çapdan çıxmış “Vüzuhül-Ərqam” risaləsini oxuculara təqdim edir. Alim Nəvvabın risaləsində qarşıya qoyulan məsələlər – muğam və poeziya, muğam və təbabət, estetika və ifaçılıq məsələləri, səsin akustikası, dəstgahların tərkibi, muğamlarda rəqəmlərin izahı və bu kimi məsələlərin şərhini verir, eyni zamanda risalədə verilən 5 cədvəli izah edərək onların “şifrə”lərini açır.

Və nəhayət, VI hissə dahi Ü.Hacıbəyli və onun elmi irsinə həsr olunmuşdur. Müəllif bu

hissəyə də xüsusi bir həssaslıq və sevgi ilə yanaşmışdır. Onun hər bir kəlməsində bu böyük mütəffəkkir şəxsiyyətə dərin hörmət, mütləq inam, daimi qürur hissi duyulur. Z.Səfərovanın Ü.Hacıbəyli yaradıcılığının əbədiləşdirilməsi, öyrənilməsi və təbliğində misilsiz xidmətləri hamıya məlumdur. Monoqrafiyada isə dahi Ü.Hacıbəylinin elmi irsi – səs-məqam nəzəriyyəsi, musiqi-estetik görüşləri, eyni zamanda bəstəkarın elmi məqalə, çıxış və məruzələri, "Azərbaycan xalq musiqisinin əsasları" əsəri, elmi fikir və düşüncələri Z.Səfərovanın musiqişünas-alim mövqeyi hüdudlarında tədqiq edilmişdir.

Kitabın quruluşundan belə bir mənzərə yaranır ki, müəllif sanki I hissədən VI hissəyə möhkəm ayaqlı bir tağ atmış, bununla da, sanki rəmzi olaraq, dahi Səfiəddinlə dahi Üzeyir bəyi bir-birilə qovuşdurmağa çalışmışdır. Z.Səfərova "Azərbaycan xalq musiqisinin əsasları"nı "yeni dövrün risaləsi" adlandırmışdır. Həqiqətən də, "Azərbaycan xalq musiqisinin əsasları" orta əsr risalələrinə çox bənzəyir. Hissələrin məzmunu, sıralanması, tetraxorların məqam sıralarının yaranmasında əsas quruluş vahidi kimi istifadə olunması, dərslik xasiyyəti, əsərlərin bəstələnməsi qaydalarının verilməsi, "Əlavə" hissəsində musiqi nümunələrinin yer alması, hətta ilk nəşrlərdə kitabın formatı belə bunu söyləməyə əsas verir. İndiki dövrdə hamımızın ümumi biliyinə çevrilmiş bu fikirlər bizə məhz Z.Səfərovanın dəqiq müşahidəlik, ümumiləşdirmə bacarığı və dərin elmi bilikləri sayəsində çatdırılmışdır. Və biz bütün bunlara görə ona minnətdarıq.

Maraqlıdır ki, monoqrafiyanın "Yekun və nəticələr" bölməsi də orijinallığı ilə seçilir, yeni fikirlər, mövzu ilə bağlı yeni müqayisəli yanaşmaları ilə diqqəti cəlb edir. Müəllif Ü.Hacıbəyli haqqında hissəyə yekun vuraraq ümumiləşdirmələrini apararkən, görkəmli bəstəkarlar Q.Qarayev və F.Əmirovun da elmi yazılarına, fəlsəfi düşüncələrinə müracət edir və bununla da, Azərbaycanın musiqi elminin, elmi fikrinin davamlılığını, ardıcıllığını, bu gün də inkişaf edərək böyük nailiyyətlər qazandığını oxuculara çatdırır. Əslində, Z.Səfərovanın öz yaradıcılığı da buna ən gözəl sübutdur. İnamla demək olar ki, Z.Səfərovanın özü, bir alim kimi, musiqi elmimizin bir-birinə bağlanan vacib halqalarından birini təşkil edir.

"Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)" əsəri musiqi mənbəşünaslığının inkişafında yeni bir mərhələ açmışdır. Z.Səfərova "Kitabül Ədvar" və "Şərəfiyyə" risalələrinin və digər orta əsr alimlərinnin əsərlərinin, dünyanın müxtəlif kitabxana və fondlarında, şəxsi kolleksiyalarında qorunan əlyazmaları haqqında dəqiq məlumatları əldə etmiş, saxlandığı yerləri və şifrələri də göstərmişdir ki, bu da gələcək tədqiqatların aparılması işini xeyli asanlaşdırmışdır. Müəllif öz kitabında həmin əlyazmaların öyrənilməsinin zəruriliyini qeyd edir və bu işin gələcək nəsillərin üzərinə düşdüyünü dönə-dönə vurğulayır. Müəllif, eyni zamanda əlyazmaların tədqiqi zamanı, həmin dövrdə yaşamış digər sənət sahələrinə aid alimlərin, eləcə də ədəbiyyatçı, şair və təsviri sənət nümayəndələrinin musiqi və musiqi alətləri ilə bağlı olan əsərlər, mənbə, sənəd və məxəzlərdən istifadə edilməsinin vacibliyini bir təlimat kimi gənclərə ünvanlayır. Göründüyü kimi, Z.Səfərova artıq 90-cı illərdə tədqiqatların aparılmasında fənlərarası yanaşmaların vacibliyi məsələsini də qaldırır və öz araşdırmalarını da bu səmtdə aparır.

*Z.Səfərovanın gənclərə çağırışı çox ibrətamizdir [1, s.479]. Biz, yaşadığımız dövrdə – XX-XXI yüzilliyin əvvəlləri – Azərbaycan musiqisinə, elminə, tarixi abidələrimizə təcavüzün, mənimsəmələrin canlı şahidləriyik. Ü.Hacıbəyli yaradıcılığından oğurluq, "Arşın mal alan" operettasının taleyindən səhifələr, xalq mahnı və rəqslərimizə təcavüz və s. Fikrimizcə, ən çox təcavüzə uğrayan elə bizim elmi risalələrimizdir. Azərbaycan tarixi, elmi və mədəniyyəti ilə bağlı olan bir sıra yazılı mənbələrə rast gəlmək mümkündür ki, onların müəyyən hissəsi "Anonim" şəkildə mövcuddur. Bu əsərlərdə Azərbaycanın tarixinə, çoğrafiyasına, elminə, musiqisinə və s. aid qiymətli məlumatlar almaq mümkündür. Məhz Azərbaycan haqqında olan əsərlərin "Anonim" şəkildə mövcud olması müəyyən suallar doğurur. Nəyə görə məhz bu əsərlərin müəllifi naməlumdur? Və ya – XVIII əsrə aid anonim müəllifin "Ədvar" [2] traktatı. Bu traktat əski Azərbaycan dilində yazılmışdır. Müəlliflərin naməlum olması bəlkə bununla bağlıdır? Çünki, məs:, "Ədvar"ın sahibinin*

*adı, əldə edildiyi ili aydın olaraq göstərilmişdir, müəllifin adı isə yazıda qeyd olunmamışdır. Və ya "Kənzül-əl Əlhan" risaləsi. Bu əsər itmiş hesab edilir. Marağayinin bütün digər risalələri dövrümüzə gəlib çatıb, yalnız niyəsə, 130 əsərdən ibarət bu toplu yoxdur. Fikrimizcə, həmin melodiyalar başqa müəllifin adı altında və ya başqa bir xalqın musiqi sərvəti kimi indi də səslənməkdədir – təəssüf ki,* ***Azərbaycan musiqisi kimi deyil****. Bu təsniflər Marağayinin özünün dediyi kimi, "aləmdə qiyamətə qədər həmişə qalacaq" – təəssüf ki,* ***Marağayinin "yadigarı" kimi deyil.*** *Artıq zaman onu göstərib ki, kitabları, əlyazmaları məhv etməklə izləri itirmək, bir rəqəmi, hərfi, sözü, adı silməklə tarixi başqa səmtə yönəltmək, "çərxi-fələyi tərsinə dövran" etdirmək mümkün imiş.*

*Cəfərsoy İlhami özünün "Şota Uruztaveli" əsərində qeyd edir ki, Çar VI Vaxtanqın əmri ilə 1706-1737-ci illərdə Gürcüstan ərazisindəki qədim səlnamələr toplanıb yeni gürcü dilinə tərcümə edilmiş və əlyazmaların ilkin nüsxələri məhv edilmişdir. Çox ola bilsin ki, yandırılan və tərcümə olunan əlyazmalar içərisində digər dillərdə yazılmış risalələr də olmuşdur və onların aqibəti çoxlu suallar doğurur [2, s.26].*

*Ona görə ayıq-sayıq olmalı, Zemfira xanımın çağırışlarına əməl etməli və çox iş görməliyik.*

Tədris sahəsində də "Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)" monoqrafiyasının əhəmiyyəti böyükdür. Hər bir tədris ocağında "Musiqi mənbəşünaslığı", "Azərbaycan musiqi tarixi", hətta "Azərbaycan xalq musiqisinin əsasları" fənlərinin tədrisində Zemfira xanımın kitablarından dərs vəsaiti və dərslik kimi istifadə olunur. Azərbaycanın musiqi elmi, onun tarixi, dahi simaları, qədim risalələr, bədii sənət əsərləri məhz bu kitabın köməyi ilə öyrənilir.

## Nəticə / *Conclusion*

Hal-hazırda, demək olar ki, əksər tədqiqat işlərində, dissertasiya və araşdırmalarda musiqişünas alimlər, gənc tədqiqatçılar məhz bu əsərə müraciət edir, onlardan sitatlar gətirir, bu əsərdən çıxış edərək öz tədqiqatlarını aparırlar. Demək mümkündür ki, indi Azərbaycan müəlliflərinin əsərləri sırasında ən çox istinad edilən əsər məhz "Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)" əsəridir. Bu əsərdən hər bir tədqiqatçının özünə götürə biləcəyi bir pay var: istər muğamşünas, aşıqşünas, mənbəşünas, etnoqraf, istərsə də ədəbiyyatşünas, tarixçi və s.

Kitabda belə sətirlər də vardır: "təqdim etdiyimiz tədqiqatın əhəmiyyətli rolu varsa, biz də vəzifəmizi yerinə yetirmiş olarıq". Hörmətli Zemfira xanıma bu sözləri söyləmək istəyirəm: Siz, bir alimin qarşısına qoyulan vəzifəni şərəflə və fədakarcasına yerinə yetirmisiniz. Siz xalqımızın tarixinə düşən "qızıl dövrü" – o möhtəşəm yüzilliklərin musiqi elmini bugünkü nəsillərin malına çevirmisiniz. Buna görə sizə çox sağ olun deyirik.

## Ədəbiyyat / *References*

1. Səfərova Z. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: Elm, 1998.
2. Köçərli İ. Musiqi mənbəşünaslığı (tədris proqramı). Bakı, 2015.

# Книга «Азербайджанская музыкальная наука (XIII-XX вв.)» Земфиры Сафаровой и ее значение в развитии музыковедения

**Ирада Кочарли**
Доктор искусствоведческих наук
Институт архитектуры и искусства НАНА. Азербайджан.
E-mail: i.kocharli@gmail.com

**Резюме.** Известный музыковед, доктор искусствоведения, профессор, академик, действительный член НАНА, обладательница ордена «Слава» (“Şöhrət”), заслуженный деятель искусства, заслуженный деятель науки, лауреат премии «Умай-96» Земфира Сафарова является одним из известных ученых нашей страны и за рубежом. Всю свою жизнь она посвятила изучению истории музыки, науки и культуры, защите национальных и духовных ценностей азербайджанского народа. Особое значение в развитии музыковедения, изучении нашей музыкальной истории имеет монография «Азербайджанская музыкальная наука (XIII-XX вв.)»

**Ключевые слова:** Земфира Сафарова, академик, С.Урмеви, А.Марагаи, «Китаб-уль адвар», М.М.Навваб, У.Гаджибейли